# ƏZİZ SƏLAMİ

***ANAMIN KƏNDİ UZAQLARDAN***

# ŞEİR ÜZƏRİNƏ

Çoxdandır bir sorğu önündə durmuşam. Bu sorğunun ardından açılan yollar çoxalır və məni hansı bir yolla gedəcəyimə qərar verməyə çağırır.
Bu sorğu:
*“Şeir necə olmalıdır?”* sorğusudur.
İnanıram ki, bu alanda uzunca söyləmək və yazmaq mümkündür. Çünki, bu sorğu hər bir şairlə dəyişə və onun ardında açılan yollar da çoxala bilər.

Şeir söz sənətidir. Sənət dedikdə, mənim gözlərim önündə insanların qoyduqları bütün sınırları aşıb keçən bir kosmos açılır. Ucu-bucağı olmayan, sona varmayan bir kosmos. Şair isə bu kosmosda yolçuluğa çıxmış bir insandır. Onun qarşısını heç bir gücün almağa haqqı olmamalıdır. O, insanların inandıqları və ya yaratdıqları bütün tanrıların səltənət mülkünü aşıb keçməli və öz tanrılı və ya tanrısız yolunu son anına qədər sürdürməlidir.
Buxovlanmış bir sənət, sənətçini sonsuz kosmosundan ayırıb bir dörd divar arasında:
”*Et burda yolçuluğunu!*” deməkdir.

Özü qadın olaraq, gözəl qızların sevdasıyla yanan Sappho xalqın gözündə yasaq olan sevdasını gizlətmiş olsaydı, bu gün onun qırıq-qırıq qalmış misraları dilim-dilim odlar kimi bizim ürəyimizdən də keçməzdi.
Hafiz, mənim şeirimi göylərdə mələklər əzbərləyirlər deyirdi. O, mənim şeirimi sultanlar, padşahlar əzbərləyirlər desəydi və şeirini də o ölçüdə saxlamağa

məcbur olsaydı biz onunu şeirlərini bunca yüzilliklərdən sonra əzbərləməzdik.
Şeirin uca dalğaları olan böyük şairlər bütün sınırları aşıb keçməklə, köpürməklə və kükrəməklə özgür varlıqlarını bildirmiş olmuşlar. İndi onlar bütün insanların büyük şairləridirlər. Sappho-durlar, Hafiz-dirlər, Li Bo-durlar, Villon-dirlər, İssa-dırlar, Goethe-dirlər, Rimbaud-dirlar, Rilke-dirlər.
Bu kimi şairlərin yaradıcılığı zamandan-zamana keçərək bütün insanlığın ədəbiyyat kültürünü zənginləşdirmişdir.

Bizim çağımızda sənət ölçülməz bir biçimdə uzaqlara getmişdir. Bunca uzaqlara gedə bilmək bir yandan sənətin özgür təbiətini göstərməkdədir və bir yandan da insanlardan çox uzaqlaşmasına nədən olmuşdur. Sənətin bir çox biçimlərində, örnək olaraq rəssamlıqda, heykəltəraşlıqda və musiqidə bu hal sənətlə sənətsevərlər arasında bir o qədər də əngəl yarada bilməmişdir. Bu gün modern bir rəssamdan bir sərgi açılarkən yığın-yığın insanların marağına və onu gedib görməsinə səbəb olur. Bu insanların bir çoxu həmin sərgidəki rəsmlərin nə olduğunu belə anlamasalar da. Klasik musiqini sevənlər modern bir sinfonini eşitmək üçün bahalı biletlər almaqdan belə çəkinmirlər, modern musiqidən bir o qədər də zövq ala biməsələr də belə.

Bu halı şeirdə necə görürük?
Picasso və bir çox başqa modern rəssamlarla çiyin-çiyinə yaradan Rene Char-ın şeirləri şeir həvəslilərı tərəfindən necə qarşılanır? Desək ki, onun şeirləriylə ancaq nadir şeir biliciləri baş-başa qala bilirlər gerçəyin nə olduğunu anlaya bilərik.

Nədən modern rəssamların, bəstəçilərin, bir sözlə sənətçilərin yaradıcılığı bir çox insanlar tərəfindən qarşılanırkən modern şairlərin şeirləri kitab qəfəsələrində toz basmaqdadır?
Ona görə ki, yüzlərlə rəsm əsərini bir yerdə birləşdirən bir sərgini bir-iki saat içində seyr edib və zövq aldıqdan ya almadıqdan sonra çıxırıq. Modern musiqi də böylədir. Şeir sənəti isə tam başqa bir şeydir. Rene Char kimi çox dəyərli, böyük bir şairin bir kitabından bir neçə şeirini oxuyub da heç nə anlaya bilmədikdə bir daha ona yaxınlaşmaq istəmirik. Anlaya bilmədiyimiz bir sərgi, ya bir konsert anlaya bilmədiyimiz bir şeir qədər usandırıcı, bezdirici deyil.
Bir rəsm əsəri ən birinci gözlərimizə görünür. Boyalar, cizgilər içində gizlədiyi nəyisə bizə açmadan öncə gözlərimizi oxşayır. Bu gün Miro və Kandnisky kimi rəssamların tablolarını hər yerdə görə bilməyimiz bundandır. O əsərlərin nə demək istədikləri ilə maraqlananlar olduqca azdır. Gözə xoş gəldimi, bəyənilir, sevilir. Beethoven-in Pastorale sinfonisini eşidərkən səslərin son dərəcə gözəlliyindən dərin zövq alırıq. O səslərin nədən söz etdiyindən xəbərimiz olmasa da belə.
Söz sənəti olan şeir amma belə deyildir. Sözlərin anlamını bilmədikdə, ən böyük ustalıqla da yazılmış olsa, usanırıq. Bu sözlərdən sonra bu sorğu qarşısında durmalı oluruq:
Şeir, ciddi şeirsevər bir kütlənin ruhuna yol aça bilmirsə, ancaq çox az insanlar tərəfindən oxunursa, o şeir öz dəyərini necə bildirəcəkdir?
Deyə bilərik ki, bəlkə gələcək insanlar belə şeirləri anlayıb da onlardan ləzzət ala biləcəklər. Bu gün İnsanların və şeirin durumu bunun tərsini göstərməkdədir. İnsanlar get-gedə şeirdən uzaqlaşırlar

və dəyərli şeir əsərləri fil dişindən bürclərə çəkilməkdədir!!!

İnamım budur ki, insan həyatı yer üzərində durduqca, insanlar sözlərlə danışana qədər söz sənəti olaraq şeir də duracaqdır. Şeir də dillərdən dillərə keçərək, insanların ruhunda öz bənzərsiz yerini aça biləcəkdir.
O şeir insanların, ən azı ciddi şeir həvəslilərinin anlaya, zövq ala biləcəkləri şeirlər olacaqdır.

2012

www.aziz-salami.info

# İÇİNDƏKİLƏR:

## ANAMIN KƏNDİ UZAQLARDAN


BİR DAHA BATAN GÜNƏŞ 9

OYANAN ÖLÜLƏR 11

UYUYAN BİR SƏS 13

DAYIMIN ALNINDAN İÇİLƏN SÜD 15

İKİDİŞLİ GÖY QURŞAĞI 18


## BULUDLAR


BULUDLAR 21

BAHAR BULUDLARI 24

YAY BULUDLARI 27

SONBAHAR BULUDLARI 28

QIŞ BULUDLARI 29

# MEYVƏLƏRİN BACISI


| | |
|---|---|
| MEYVƏLƏRİN BACISI | 31 |
| GÜLƏN QADIN | 33 |
| UZAQLIQLAR | 34 |
| PEYİN QOXUSU | 36 |
| MAVİ PƏNCƏRƏ | 38 |
| TOPQARA | 40 |
| HƏR BAHARLA AÇILAN GÖZLƏRİN | 42 |
| FRİDUN ƏMİ | 44 |
| SONBAHAR SONUNUN KÖLGƏLƏRİ | 47 |

# ANAMIN KƏNDİ UZAQLARDAN

# BİR DAHA BATAN GÜNƏŞ

(Dəmirçi kəndi)

Orda açdı yaşam
İşıq qollarını
Qaranlıqdan gələn anama.

Əmdikcə anasının südünü
Çılpaq təpələrin susuzluğu
Doldurdu
Qurtum-qurtum içini.

İməklədikcə kilim döşənmiş evlərində
Öyrəndi torpağın sonsuz dözümündən
Uşaqca
Yumşaqca dizləri.

Meyvəyə həsrət bir torpağın meyvələri
Yalnız qızların köksündə yetişərkən
Qabardı onun da köksü zamanla.

Təndirdən yenicə çıxmış çörək kimi
Qızarınca yanaqları isti-isti,
Duyunca dodaqları arasında
Vəhşi lalələrin yanıq iyini
Şəhərdən gəlmiş çərçi oğlanın
Doldurdu gözlərini.

Bir axşam
Bulaq başından dönməyən anamın
Ardınca gələn atası
Qızının sənəkçəsini
Qızı olmadan
Görüncə,
İçini dolduran bir fırtınadan
Qalxınca başı,
Bir at üstündə
İki qaraltını
Dördnala çapan gördü
Toranlıqda.

Artıq batmış olan günəş
Bir daha batdı
Qanlı-qanlı ürəyində!

# OYANAN ÖLÜLƏR

(İmamzada)

Kənddən az aralı
Balaca bir damdı
Palçıqdan
İmamzada.
Yanında bir qısıq
Bir arıq
Minarəsi.

Acından öləcək
Bir heyvanı andıran
Cılız bir ağac vardı
Qapısının ağzında.

Hər rəngdə diləklərin
Hər rəngdə əsgiləri*
O arıq ağacın
Budaqlarının
Verdiyi meyvələri.

Açıldımı ayda bir, ildə bir
Cır-cır qapısı,
Görsünlər deyə bağladıqları əsgilərin
Meyvə verməsini
Oyanardılar yüz illər ardında yatmış ölülər!

Minlərcə kəndlərimizdə yatan bir neçə imamlardan
Orda da yatan vardı!
Acmısan, susuzmusan, xəstəmisən?

Namaz alan
Oruc alan
Aclığı, susuzluğu,  xəstəliyi
Olmayan
Bir cənnət satan vardı.

İmamzadanın palçıq minarəsindən dayımın
Hər gün
Azan səsinin ucalması
Püflənən bir dua kimi
Əsib keçərdi
Çox əski
Qapanmaz bir yaranın üzərindən.

* *Düyünü açılarkən arzu-diləyin gerçəyə qovuşması üçün ağac budaqlarına bağlanan qumaş və paltar əsgiləri.*

# UYUYAN BİR SƏS

(Qaramеşə)

İlk kərə gördüyümdə
İnanmadım
Orda
Onun olmasına:

Köksündə bir qaya, iri bir daş ağırlığı
Az duyan o torpaqda,
Parça-parça
İri daşların altından
Püskürüb axırdı dumduru, sərin sular.

Yanıb qurumuş döşlərindənmi axırdı o yerlərin?!

"*O sulardan bir az çəkinməli*!"
Deyirdilər,
"*Gəlib su içər
Oradan bir ilan!*"

Uyuyan bir səs duydum ordakı səssizlikdə,
Nəyin səsiydi, kimin səsi
Bir zaman dil açıb deyəcəkmi sözlərini?!

O suların bəslədiyi
Bir meşə vardı orada,
O torpağn  amansız və quraq
Əlləri
Qoparmasın deyə bir-birindən onları,

Sıx-sıx dururdular
Yan-yana
Hündür ağacları.

Qorxulu bir nağıla girər-girməz
Dönər kimi,
Girmədən
Döndüm o meşədən:

Budanmış heyvan cəmdəkləri,
Üzülmüş, didilmiş quş kəllələri,
Kəllələrdə gözlərin
Göyləri boşuna arayan
Qaranlıq dəlikləri.

Uyuyan bir səs duydum ordakı səssizlikdə,
Nəyin səsiydi, kimin səsi?!
Susdu mənim on dörd illik qulağımda,
Dil açıb da deyəcəkmi sözlərini
Bir gün bir insana?!

# DAYIMIN ALNINDAN İÇİLƏN SÜD

(tarla)

Yaşıl və geniş bir xalı sərmişdi dayım
Yanıq təpələrlə
Çılpaq çöllər arasında.

Hər otu rəngini
Dayımın gözlərindən almışdı
Yamyaşıl.

Onun alnından əmmişdi südünü
Boylanan
Hər çiçək.

Yay günlərinin
Aslanarkən tarla üzərində
Durğun
Odlu ürəyi,
Çırpınardı üç ürək səssizcə:
Dayımın və mənim, bir də dayımın
Eşşəyinin köksündə.

Dayım böyüdərkən otları bir-bir od içində,
Mən də böyüdərdim xəyallarımı kölgələrdə!

Əlimdə qələm-kağız
Çəkərdim üç-dörd ağacı,
Çəkərdim budaqları
Yarpaqları,

Olmayan küləkləri
Əsdirərdim
Sərin-sərin
Kağızlaşmış ağacların üzərində.

Acıqdıqmı
Açılardı dadlı süfrəmiz:
Yeyərdik doğramanı*
Şirin-şirin.
Yeməyimiz bitdimi
Dayım göndərərdi göylərə
Mənim də şükür payımı!

Uzandımı kölgələri ağacların
Duyuldumu tarlanın üzərində
Havanın döyünən ürəyi,
Dayım çatardı otları eşşəyinə
Çatardım mən də xəyallarımı içimə!

Üzərində
Qaranquşlar yelkən açan
Buğda tarlasını
Bölən cığır
Gətirərdi bizi kəndə.

Doğradıqca soğansuya**
Biz çörəyi,
Bükülərdi yavaş-yavaş
Dayımın kürəyi.

Yoruldumu kəndin köpəkləri
Qaranlıqda olmayanlara hürməkdən!

Söndürərdi yuxunun
Qabarlı və yorğun barmaqları
Göz qapaqları
Ağırlaşmış
Lampaları.

* *Bir kasa suya bir neçə qaşıq qatıq (yoğurd) qatıb içinə çörək doğramaqla yaranan yemək.*

** *Bir az yağda qızarılmış soğana su qatmaqla hazırlanan yemək.*

# İKİDİŞLİ GÖY QURŞAĞI

(Məryəm)

Neçə yaşı vardı Məryəm`in,
Unutmuşam,
Amma unutmamışam
O incəcik
İkicə dişlərini.
Qardan almışdı rəngini,
Və günəşdən
Gülüşlərini.

Anası tapşırardı mənə
Və dalardı
Bitməz ev işlərinə.

Mən düzdükcə rəngləri kağıza
O düzərdi üz-gözünə.

Bir göy qurşağıydı
İkidişli,
Baxarkən gülərək üzümə.

Yoruldumu oynamaqdan
Rənglərə boyanmaqdan
Qapanardı göz qapaqları,
Axşamları
Qapanan çiçəklər tək.

***

Məryəm`i öldürən ölümü
Öldürərdi bir iynənin, bir həbin möcüzəsi!!!

Öpüb keçdi Məryəm`in əl boyda məzarını
Yanıq təpələrin yarıq dodağından
Qopub gələn
İsti külək.

# BULUDLAR

Fərhud üçün

# BULUDLAR

Birdən
Görərik boylanmasını
Dağlar ardından
Uzaqlardan
Topa-topa
Ağ buludların.

Keçərkən
Köksündən bir işıq
Bütün canlıların
Bütün bitkilərin
Duyarıq
Köksümüzdə onu biz də.

Sudur
Gətirdiyi buludların
Su:
Birləşdirən bizi
Ulu kökümüzdə.

Böyüyə-böyüyə keçərlər
Başımızın üzərindən,
Haralı olduqlarını sormayın
Haralı olduğumuzu sormazlar,
Endirərlər göylərdən
Hər elin
Yağmur payını
Torpağına.

Dağıdarcasına çırparlar
Var gücləriylə dolularını
Dünyamızı bölən məftillərin
Tikanlarına.

Əylənərlər
Başında
Uca dağların,
Qucaqladıqca qayaları
Birləşdirərlər
Yumşaqlığıyla
Sərtliyini
Ən əski bir yasanın.

Nədən qalmazlar
Böyük şəhərlərdə
Göydələnlərin üzərində?
Uzaqlaşarlar
Qarala-qarala!..

Keçərlər
Dənizlərin üzərindən
Uca yelkənləri tək
Mavi gəmilərin.

Yerüzündə sulardırsa
Aynaları
Ana təbiətin
Buludlardır göyüzündə,
Görərik buludların aynasında
Bu günü
Sabahında.

Birdir zamanı buludların
İndidir
Keçmişi də,
Bacchus`dursa bir bulud
Doldurarkən
Əlindəki qədəhi
Batan günəşin qıpqırmızı şərabı,
Oynayan uşağıdır qonşumuzun
Bir bulud da.

# BAHAR BULUDLARI

1

Almış sulu boya fırçasını
Körpə bir uşaq əlinə,
Qoymuş bir-bir ağ rəngləri
Mavi bir kağız üzərinə,
Sanki çəkmiş öz tombul əllərini
Çəkə bilmədən barmaqlarını,
Axıb dolmuş içinə o rənglərin
Yumşaqlığı əllərinin,
Hopmuş bir-bir o rənglərə
Xırıltısız, duru gülüşləri,
Uzanıb yanaqlarının incə qızartıları
Örtmüş o ağların yer-yer üstünü,
Doldurmuş baxışlarının sevincli işıqları
Topa-topa ağ boyaları.

Bahar buludları!
Bahar buludları!

2

Keçərkən ağacların altından
Qonurdu çiyinlərinə arabir
Budaqlardan uçan çiçəklərin ləçəkləri,
Əyilib dərirdi sevdiyi çiçəklərdən,
Yatmış bir uşağı
Qoyarcasına beşiyə usulcadan
Qoyurdu dərdiyi çiçəkləri
Qolundakı zənbilinə,
Hər kəsdən gizlədiyi bir sirr kimi
Nəsə pıçıldayırdı dodaqları,
Tikanlı qızılgüllərdən dərərcəsinə
Keçirdi sözlərindən mahnısının
Qanaya-qanaya
Sevərcəsinə!

Söykənib bir ağaca
Hönkürüb ağladı,
Kimsə duymasın deyə
Susdu həmən.

Dərə-dərə çiçəklərdən
Keçirdi yenə ağacların altından,
Bir cüt qıpqırmızı
Lalə boylanırdı
Otların arasından,
Sarmışdı yarpaqları bir-birini,
Yumşaq ləçək-yanaqları
Söykənmişdi bir-birinə.

Dərmək istəmədi onları,
Duyunca görünməz bir yanağın

Axan istisini yanağında
Yumdu gözlərini,
Gülümsədi arı-arı.

Bahar buludları!
Bahar buludları!

# YAY BULUDLARI

Qalxarkən başımız
Görərik birdən
Mavi uçurumlardan
Keçərkən
Birər-birər
Ağ maralları.

Dinər arzusu köksümüzdə
Bir qurtum
Sərin südlərinin.

Doldurar boş kölgələri
Qurumuş bulaqların
Kor gözlərini.

***

Bir sabah oyanarkən
Duyarıq
Biz yatarkən
Bir qonağın gəlib getdiyini.

Görərik bağçamızda
Hər çiçəkdə
Hər yarpaqda,
Və yollarda
Hər bir daşın üzərində
Bizə gətirdiyi parıl-parıl
Sovqatını.

# SONBAHAR BULUDLARI

Bütün gedənlərin
Ağ dəsmallarıdır
Sonbahar buludları.

Süzərkən onları
Keçmiş duyarıq
Gedənləri özümüzdən,
Açılar
Bomboş bir yuva
İçimizdə.

Ah, sonbahar buludları!

Yox, onlara toxunmayın!
Saçılar üstünüzə
Gizli-gizli
Gözyaşları.

Buraxın!
Buraxın getsinlər,
İsladaraq
Qaranlıq gecələrdə
Əsən ruzgarları.

Ah, sonbahar buludları!

# QIŞ BULUDLARI

Göyün ağaclarıdır
Qış buludları,
Uzanar kökləri
Zamanın ən soyuq bölgəsinə.

Gizlənər öz içində yarpaqları
Eşidilməz pıçıltıları.

Keçdimi içlərindən
Soyuğun donduran nəfəsi
Açar birər-birər çiçəkləri,
Sovrular
Ağappaq havaya,
Örtər
Torpağı.

Ən gözəl çiçəklərdir o çiçəklər,
Oyadar soyuq qoxuları
Ən isti
Duyğuları,
Yırtıq deyilsə ayaqqabın,
Çalmazsa içində evinin
Soyuğun ilanı
Ürəyindən!

# MEYVƏLƏRİN BACISI

# MEYVƏLƏRİN BACISI

Gözəl səsi vardı Pərvəndə´nin,
Mahnıların ta içindən qopardı səsi,
Və quşların
Baharla oyanmış
Boğazından.

Dırmaşardı ağaclara
“*Baxın qıza!”*
Söylərdilər.
Əriklərin, armudların, heyvaların
Oxuyan və gülən şən bacısı bilərdilər.

Qıpqırmızı almalarla bir qabarmışdı köksü də,
Bağların sərxoş küləkləri
Dolmuşdu içinə.

“*Gəlin, Pərvəndə oxuyur!”*
Deyərdilər.
Hansı mahnı bağlarından dərmişdi o mahnıları?!
Bir nağıl şirinliyilə doldurardı səsi
Qulaqları.

***

Bir damda saxlanırdı bir qadın,
İllərlə saçlarını
Bir daraq oxşamamış,
İllərlə sönmüş dodaqları
Bir gülüşlə yanmamış,

İllərlə görünməz bir qaranlığa
Dalmış gözləri
İşıq dünyaya qayıtmamış.

Bir damda saxlanırdı bir qadın,
“*Dəlidir!*”
Deyirdilər,
Tanımaz heç kəsi
Danışmaz heç kəslə,
Anlaşılmaz nə olduğu,
Bir söz söyləsə də.

Pərvəndə`dir dedilər!

# GÜLƏN QADIN

Açaraq dodaqlarını
Gülən qadın!
Bir daha mən səni görə bilməyəcəm.
Çoxdur yolları dünyamızın,
Uzundur mənim yolum,
Bir daha mən səni görə bilməyəcəm.
Bir quş qalacaq məndən
Ağzının yuvasında,
Dincələcək
Nəfəsinin küləyində.
Ötəcək
Sən gülən zaman.
Açacaq qanadlarını
Uçacaq
Öpüşlərinin dərin
Buludsuz göylərində.

# UZAQLIQLAR

Mən səninlə
İnandım
Qanadlarımın varlığına.

Duydum
Oxşadıqca çiyinlərimi
Ucalardan
Keçən küləkləri.

Artıq
Məsafə deyildi
Mənimlə
Mavigözlü
Üfüqlər arasında olan,
Keçməkdi
Şipşirin yuxulardan,
İçməkdi
Damla-damla
Tanrıların
İçdikləri şərablardan.

Röyalardanmı gəlmişdin
Ki döndün də röyalara?

İndi baxıram
Öz ağırlığından
Qopa bilməyən
Bir daşın
Gözləriylə mavigözlü üfüqlərə,

Və aramızda
Bu varılmaz
Uzaqlıqlar
Uzaqlıqlar
Uzaqlıqlar ...

# PEYİN QOXUSU

Atım oldu bir cığır
Mindim ona
Sardım qollarımla
O çiçəkli və yaşıl yalmanını
Sürdüm səssizcə axan
Bir çay boyunca.

Keçdim bir evin kənarından,
Başlanan bir ormanın
İlkin, qocaman palıdlarına
Söykəmiş arxasını.

Gələcək ətsiz günlərə ət yaşadan
Bir yığın toyuq-cücə
Dənləyirdi o evin
Kimsəsiz, səssiz həyətində.

Birdən
Güclü bir qoxu
Peyin qoxusu
Doldu burnuma.

Bir anda mən
Yoxdum artıq indidə,
Vardım çoxdan
Keçmiş bir zamanda,
Süzürdü məni sevimli gözləri onların
Dinləyirdim isti səslərini,

Çıxmışdı artıq ürəyimdən
Onlarsız olan
Bir zamanın soyuqları.

Bəzən
Haradansa gələn
Ən dərin duyğuların,
Haradansa yüksələn
Ən gözəl mahnıların
Edə bilmədiyi  möcüzəni
Edə bilir sadəcə
Bir peyin qoxusu!
Açıq qoyarsaq zamanın
Hər anına
Ruhumuzu.

# MAVİ PƏNCƏRƏ

(əfsanə)

Kim dedi ilk kərə  bu “*deyirlər*” i ?
Kim əkdi gülüşdən
Və gözyaşından toxumu
Zamanın tarlasında?

Deyirlər tutqunnaxışlı və ağır
Bir xalı tək
Çoxdan göy üzünə döşənmiş buludları
Dərinlərdən qaynayan
Və coşan sular kimi
Çaxnaşarkən gördülər.

Yırtılaraq birdən
O ağır xalının
Tutqun bir naxışı
Arxasında mavi atlasdan pərdəsi
Bir pəncərə açıldı buludlarda.

Çiyinlərində qoşa
Və işıqlı qanadları
Bir mələk göründü ardında
O mavi pəncərənin.
Bir gülüşlə işıqlandı
Mələk dodaqları,
Əyilib ordan baxınca yerə
Sardı üzünü o ağır xalının
Tutqun naxışları.

Süzülərkən gözlərindən
Qaranlıq gözyaşları,
Mavi pəncərə olan yerdə
Gördülər birdən qapanan buludları.

Sular kimi dənizlərdə
Olmasa da mavilərin
Durduğu yer göylərdə
Göstərərlər indi də
Bir parça mavini
Göy üzündə
Və deyərlər:
"*Orda gördülər*
*Mavi pəncərədən*
*Baxan mələyi!*"

# TOPQARA*

Hardan almışdı adını
O Topqara?!

Bir alınyazısından
Bir qaraydımı
Qopub qalmışdı o yerlərdə?!
Ölmüşdümü çoxdan yiyəsi
Və qara
Qalırdımı hələ də?!

Çiçəklənmiş bir ağacla
Açılmış görmədim qollarını
Bahara.
Və qatan
Səsini,
Oyanmış şən mahnılara.

Qaranlıq və tilsimli bir qayaya
Qazmışdılarmı onun adını?!

Hər nəyi durmadan
Qanadlarında aparan zaman
Uçub keçirdi üzərindən
Ona toxunmadan.

Keçərdim yayın odundan keçən tozlu yollardan,
Baxardım Topqara`ya,

Tutaraq əllərindən
Aparmaq istərdim
Oradan,
Qoparmaq istərdim o sonsuz qaradan,
Düşünərdim:
“*Necə aparım səni mən*
*Hara aparım səni mən*
*Hara?*
*Ah*
*Topqara!*”

* *Miyana yaxınlığında bir kənd*

# HƏR BAHARLA AÇILAN GÖZLƏRİN

Hər baharla
Açılar
Hər yanda
Gözlərin.

Daşar bağçaların
Çəpərlərindən
Salxım-salxım
Yollara,
Qoxuyar ...
Qoxuyar ...
Bayıldar havanı,
Azdırar
Uzaq yolların yolçuları
Küləkləri
Yollarından.

Qoxuyar ...
Qoxuyar ...

Bir parça
Çılpaq çörək ardınca gəzərkən
Əllərim,
Damla-damla tükənərkən yollarda
Nəfəsim,
Doldurarkən qulaqlarımı
Bir yalquzağın
Gecə-gündüz
Ulartıları,

Yanan bir yaranın üzərindən
Keçən sərin bir külək kimi
Əsib keçdi günlərimin
Üzərindən
Gözlərin.

Açılıb qoxuyan
Yasəmənlərmi
Ya gözlərinmi
Doldurmuşdu dünyanı?!

Keçirdi zaman daşa-daşa
Dalğalanırdı içimdə
Yasəmənlərin
Və gözlərinin qoxusu.

Hər baharla
Açılar
Hər yanda
Və daşar
Bağçaların çəpərlərindən
Salxım-salxım
Yollara,
Yasəmənlərlə
Gözlərin.
Qoxuyar ...
Qoxuyar ...
Bayıldar havanı,
Azdırar yollarından
Uzaq yolların
Yolçuları
Duyğuları.

# FRİDUN ƏMİ

Laləˊ m üçün

Mən səni tanıyarkən
Sən özün yoxdun artıq
Fridun əmi!

Keçdim keçdiyin yollardan
Aradım
Bir izini,
Girdim
Girdiyin qapılardan
Aradım
Bir sözünü.

Yığarcasına
Yüz illərdən qalmış
Gildən bir qabın
Qırıqlarını,
Yığdım
Qırıq-qırıq sözlərindən.

Namaz qılmağını görməmişlər
Oruc tutmağını görməmişlər
“*Allah bilir, necə bir adamdır o!”*
Səninlə bir ömür
Yaşayanlar
Söyləmişlər!

Dumanlı bir yoldur yolumuz
Fridun əmi!

Qarışar o dumanda
Olanla
Olmayan bir-birinə,
Bir dağmıdı gördüyümüz
Bir divmidi
Ya bir xəyalmıdı?!
Bilinməz ki!

Danlamışdın bir çobanı
Daş atarkən
Qoyunlara:
“*Daşla*
*Çağırmazlar oğul, heyvanları!*”
Söyləmişdin,
İnsanları
Daşla
Çağıranlar ölkəsində!

“*Xoş gəldin!*”
Söyləmişdin
Bağçanda açan bir çiçəyə,
Analar
Qızqayıt qoyarkən adını
Doğulan qızlarının!

Töküldükcə
Damının palçıq kərpicləri,
Tökülür
Sənin xatirən də
Bu dünyada,
Bir azdan itəcəksən sən də
Fridun əmi
İtəcəksən bu dumanda!

Dopdolu
Günəşli günlər kimi
Keçirmək istədim səni
Mahnılardan,
Keçirə bilmədim
Fridun əmi!

Dumandan sıyrılıb
Görünən bir ulduz tək
Görünsün istədim
Döyünsün istədim
Mənim sözlərimdə
Sənin
Ürəyin də.

# SONBAHAR SONUNUN KÖLGƏLƏRİ

Nə amansız olurmuş
Sonbahar sonunun
Kölgələri.

Gəlirlər gönəşlə addım-addım
Qurdlar gələrcəsinə ardınca
Qoyunların.

Pusurlar ardında
Damların
Ağacların,
Əyləndimi bir yerdə günəşin işıqları
Soyudur onları
Zəhmli baxışları.

Nə amansız olurmuş
Sonbahar sonunun
Kölgələri.

Keçərək gündüzdən
Gecəni daşıyırlar,
Gündüzün kölgələri
Deyilmiş sanki onlar,
Gündüzdə
Gecəni yaşayırlar.

Gecədən qopub qalmış
Dilimlərdir o kölgələr
Gecəni arayırlar.

Alırlar gündüzdən
Özünə inanmasını,
Doldururlar yerinə
Gündüzün
Gecənin bir parçası olmasını.

Nə amansız olurmuş
Sonbahar sonunun
Kölgələri.

İzləyə-izləyə günəşi
Çoxalırlar
Çoxala-çoxala
Qaralırlar,
Alırlar üstünü
Yaxın bir təpədə.

“*Gəl!”* deyə səsləyərkən
Uzaqlardan
Uca dağlar.

Nə amansız olurmuş
Sonbahar sonunun
Kölgələri!